# Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1 . **Bu Qanunun məqsədi**

1.1. bu Qanun ictimai birliklərin və fondların, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin yaradılması və fəaliyyət göstərilməsi ilə bağlı münasibətləri tənzimləyir.[1]

1.2. Bu Qanunda "qeyri-hökumət təşkilatı" anlayışına ictimai birliklər və fondlar daxildir.

1.3. Bu Qanun hüquqi şəxslər kimi qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.

1.4. Bu Qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə orqanlarına, habelə bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara və başqa qanunlarla tənzimlənən digər qeyri-kommersiya təşkilatlarına şamil edilmir.[2]

M a d d ə 2 . **Qeyri-hökumət təşkilatı**

2.1. **İctimai birlik** - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatdır.

2.2. **Fond** - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatdır. [3]

2.2-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri - Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış qeyri-kommersiya hüquqi şəxsin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumlarıdır.[4]

2.3. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər. Məqsədi və ya fəaliyyəti Azərbaycan Respublikasının konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməyə, irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında filial və ya nümayəndəliklərinin yaradılmasına və fəaliyyətinə yol verilmir. *Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qeyri-hökumət təşkilatlarının yaradılması və fəaliyyəti qadağandır.*[5]

2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və exit-poll həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər. [6]

M a d d ə 3 . **Qeyri-hökumət təşkilatının adı və olduğu yer**

3.1. Qeyri-hökumət təşkilatının onun təşkilati-hüquqi formasını və fəaliyyətinin xarakterini göstərən adı olmalıdır. Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.[7]

3.2. Qeyri-hökumət təşkilatının olduğu yer onun nizamnaməsində göstərilmiş hüquqi ünvanı ilə müəyyən edilir.

3.3. Qeyri-hökumət təşkilatının hüquqi ünvanı dəyişdikdə müvafiq icra hakimiyyəti orqanına bu barədə 7 gün müddətindən az olmamaq şərti ilə yazılı məlumat verilməlidir.

M a d d ə 3-1. **Qeyri-hökumət təşkilatının rəmzləri**[8]

Qeyri-hökumət təşkilatı bayraq, emblem və sair rəmzlərə malik ola bilər. Təşkilatın rəmzləri Azərbaycan Respublikasının və xarici dövlətlərin dövlət rəmzləri, habelə dövlət orqanlarının, beynəlxalq təşkilatların və digər qurumların rəmzləri ilə eyni olmamalı, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.

II fəsil

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ TƏŞKİLATİ-HÜQUQİ FORMALARI, NÖVLƏRİ VƏ İŞTİRAKÇILARI

M a d d ə 4 . **Qeyri-hökumət təşkilatlarının təşkilati-hüquqi formaları**

Qeyri-hökumət təşkilatları bu Qanunla müəyyən edilmiş təşkilati-hüquqi formalarda təsis oluna bilərlər.[9]

M a d d ə 5 . **Qeyri-hökumət təşkilatlarının növləri**

Qeyri-hökumət təşkilatları daimi əsaslarla və ya konkret məqsədlərə nail olmaq üçün təsis oluna bilərlər.

Maddə 6. **Qeyri-hökumət təşkilatlarının fəaliyyət ərazisi**

6.1. Qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında ümumazərbaycan, regional və yerli statusla təsis oluna və fəaliyyət göstərə bilərlər. Qeyri-hökumət təşkilatının fəaliyyət ərazisi təşkilat tərəfindən müstəqil müəyyən olunur.

6.2. Ümumazərbaycan qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Regional qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının iki və ya artıq inzibati ərazi vahidini əhatə etməlidir. Yerli qeyri-hökumət təşkilatları bir inzibati ərazi vahidinin çərçivəsində fəaliyyət göstərirlər.

6.3. Beynəlxalq qeyri-hökumət təşkilatları - öz fəaliyyət dairəsi ilə Azərbaycan Respublikasının və ən azı başqa bir xarici dövlətinin ərazilərini əhatə edən ictimai birliklərdir.

Maddə 7. **Qeyri-hökumət təşkilatının filial və nümayəndəlikləri**

7.1. Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.[10]

7.1-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər.[11]

7.2. Qeyri-hökumət təşkilatının filialı həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilə və onun fəaliyyətini və ya fəaliyyətinin bir hissəsini həyata keçirə bilər.

7.3. Qeyri-hökumət təşkilatının nümayəndəliyi həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilir, onun maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.

7.4. Qeyri-hökumət təşkilatının filialı və nümayəndəliyi hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından, təsdiq etdiyi Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun fəaliyyət göstərir. Filial və nümayəndəliklərin fəaliyyətinə görə onları yaradan qeyri-hökumət təşkilatı məsuliyyət daşıyır.[12]

7.4-1. Qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində onu yaratmış təşkilatın adı, dövlət qeydiyyatı haqqında məlumatlar (qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, onun qeydiyyatını aparmış qurumun adı), filial və ya nümayəndəliyin hüquqi ünvanı, idarə edilməsi qaydası, rəhbərinin səlahiyyətləri, ləğv olunması qaydası göstərilməlidir.[13]

7.5. Filial və nümayəndəliyin rəhbərləri qeyri-hökumət təşkilatı tərəfindən təyin edilir və qeyri-hökumət təşkilatı tərəfindən verilən səlahiyyət dairəsində fəaliyyət göstərir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər, habelə xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş qeyri-hökumət təşkilatlarının, eləcə də xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar. Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir.[14]

Maddə 8. **Qeyri-hökumət təşkilatlarının iştirakçıları**

8.1. İctimai birliklərin iştirakçılarına təsisçilər, üzvlər və köməkçilər aiddir. Fondların iştirakçılarına təsisçilər və köməkçilər aiddir.

8.2. İctimai birliyin yetkinlik yaşına çatmamış üzvləri Azərbaycan Respublikasının mülki qanunvericiliyə əsasən hüquqlar əldə edir və vəzifələr daşıyır.

8.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının iştirakçıları ola bilər.

8.4. Qeyri-hökumət təşkilatlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.

8.5. Bu Qanunun 8.4-cü maddəsində göstərilən tələb hər hansı cinsin xüsusi maraqlarının müdafiəsi ilə yaradılan qeyri-hökumət təşkilatlarına şamil edilmir.[15]

Maddə 9. **Qeyri-hökumət təşkilatlarının təsisçiləri**

9.1. Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

9.1-1. Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.[16]

9.2. Qeyri-hökumət təşkilatlarının təsisçiləri bərabər hüquqlara malikdir. Onların qarşılıqlı hüquq və vəzifələrinin həcmi qeyri-hökumət təşkilatının təsis edilməsinə münasibətdə təsis müqaviləsi ilə (müqavilə bağlandıqda), qeyri-hökumət təşkilatının fəaliyyətində iştiraka münasibətində isə qeyri-hökumət təşkilatının nizamnaməsi ilə müəyyən edilir.

Maddə 10. **İctimai birliklərin üzvləri**

10.1. Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər.

10.2. İctimai birliyin üzvləri bərabərhüquqludurlar. Onlar ictimai birliklərin rəhbər orqanlarına seçə və seçilə, fəaliyyətində iştirak edə, rəhbər orqanların fəaliyyətinə nəzarət edə, nizamnamə ilə nəzərdə tutulmuş digər hüquqlar daşıya bilərlər, eləcə də nizamnamə tələblərinə riayət etməlidirlər.

10.3. İctimai birliyin üzvlüyünün əldə edilməsi və üzvlüyə xitam verilməsi məsələləri nizamnamə ilə müəyyən edilir. Nizamnamə ictimai birliyin üzvlüyünə xitam verilməsindən birliyin daxilində və məhkəməyə şikayət etmə hüququna təminat verməlidir.

10.4. İctimai birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməlidir.[17]

10.5. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol

verilməməlidir. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatının fəaliyyəti məhkəmə qərarı ilə bu Qanunun 31.3-cü maddəsində nəzərdə tutulmuş müddətə dayandırıla bilər.[18]

Maddə 11. **Qeyri-hökumət təşkilatlarının köməkçiləri**

Qeyri-hökumət təşkilatlarının köməkçilərinə nizamnamələrinə müvafiq olaraq qeyri-hökumət təşkilatının fəaliyyətində iştirak etməklə, ~~öz münasibətlərini qeyri-hökumət təşkilatı ilə təşkilatı cəhətdən rəsmiləşdirmədən~~ ona müxtəlif kömək və ya xidmətlər göstərməklə qeyri-hökumət təşkilatını dəstəkləyən fiziki və hüquqi (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) şəxslər aiddir. Köməkçilərin mövcudluğu və onların hüquqi statusu qeyri-hökumət təşkilatının təsis sənədləri və "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.[19]

## III fəsil

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ YARADILMASI, YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

Maddə 12. **Qeyri-hökumət təşkilatının yaradılması**

12.1. Qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə mövcud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər.

12.1-1. Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır.[20]

12.2. Qeyri-hökumət təşkilatının təsis edilməsi nəticəsində yaradılması təsisçilərin (təsisçinin) qərarı ilə həyata keçirilir. Bu halda təsis yığıncağı çağırılır və təşkilatın nizamnaməsi qəbul olunur.

12.3. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir.[21]

Maddə 13. **Qeyri-hökumət təşkilatının nizamnaməsi**

13.1. Qeyri-hökumət təşkilatının nizamnaməsində qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri, daimi və ya konkret məqsədlə təsis edildiyi, idarə olunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası, *o cümlədən gənclər təşkilatlarında üzvlərin yaşına dair tələblər,* qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakından istifadə qaydası müəyyən edilməlidir.[22]

13.2. Fondun nizamnaməsində həm də fondun "fond" sözü daxil edilmiş adı, onun olduğu yer, fondun məqsədi, onun orqanları, o cümlədən Himayəçilik Şurası və onların formalaşma qaydası, fondun vəzifəli şəxslərinin təyin edilməsi və onların azad edilməsi və fondun ləğv edildiyi halda onun əmlakının müqəddəratı haqqında məlumatlar olmalıdır.

13.3. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.[23]

Maddə 14. **Qeyri-hökumət təşkilatının nizamnaməsinə dəyişikliklərin edilməsi**

14.1. İctimai birliyin nizamnaməsinə dəyişikliklər onun ali idarəetmə orqanının qərarı ilə edilə bilər. Fondun nizamnaməsinə dəyişikliklərin edilməsi fondun Himayəçilik Şurası tərəfindən və yalnız fondun məqsədləri istiqamətində edilə bilər.

14.2. Fondun nizamnaməsi fondun Himayəçilik Şurası tərəfindən bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun. Əgər fondun nizamnaməsinin dəyişilməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə gətirərsə, nizamnamədə dəyişikliklərin mümkünlüyü isə nəzərdə tutulmayıbsa, yaxud nizamnamə səlahiyyətli şəxslər tərəfindən dəyişilməyibsə, bu nizamnaməyə dəyişikliklərin edilməsi hüququ fondun Himayəçilik Şurasının ərizəsinə əsasən məhkəməyə mənsubdur.

14.3. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklər onların dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

Maddə 15. **İctimai birliyin təsis edilməsi haqqında bildiriş**

15.1. İctimai birliyin təsis edilməsi haqqında bildiriş onun təsis edilməsi haqqında qərarın qəbul olunduğu andan 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına yazılı müraciət vasitəsi ilə həyata keçirilir. İctimai birliyin rəhbəri tərəfindən imzalanmış müraciətə təsis protokolu da əlavə olunmalıdır.

15.2. Müvafiq icra hakimiyyəti orqanı ictimai birliyin təsis edilməsi haqqında bildirişi alan gün bildirişin daxil olmasını təsdiq edən sənədi ictimai birliyin nümayəndəsinə verir və ya poçt vasitəsilə göndərir.

Maddə 16. **Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı**

16.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi şəxslərin qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

16.2. Qeyri-hökumət təşkilatı yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir.

*16.2-1. Qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin elektron müraciət əsasında müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə dövlət qeydiyyatı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.*

*16.2-2. Qeyri-hökumət təşkilatlarının bank hesabları üzrə maliyyə əməliyyatlarının aparılması zamanı müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə əldə edilmiş sənədlərdən kağız daşıyıcılarda, yaxud "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron qaydada istifadə*

*edilir.*[24]

16.3. Qeyri-hökumət təşkilatlarının və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin təsis sənədlərində qanunvericiliyə uyğunsuzluq aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanı həmin qurumlardan 30 gün müddətində təsis sənədlərinin qanunvericiliyə uyğunlaşdırılmasını tələb edir.

16.4. Qeyri-hökumət təşkilatları və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri fəaliyyətini müvəqqəti olaraq dayandırması ilə bağlı müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər.[25]

M a d d ə 1 7 . **Dövlət qeydiyyatına alınmasından imtina**

17.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatına alınmasından yalnız "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda imtina edilə bilər. [26]

17.2. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından, imtinanın əsasları və təsis sənədlərin hazırlanmasında qanunvericiliyin pozulmuş müddəaları və maddələrini göstərilməklə, yazılı surətdə məlumat qeyri-hökumət təşkilatının nümayəndəsinə təqdim olunur.[27]

17.3. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından imtina, pozuntular aradan qaldırıldıqdan sonra sənədlərin dövlət qeydiyyatı üçün yenidən təqdim edilməsinə mane ola bilməz.

17.4. Qeyri-hökumət təşkilatın dövlət qeydiyyatına alınmasından imtinadan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.[28]

M a d d ə 1 8 . **Qeyri-hökumət təşkilatının fəaliyyətinə xitam verilməsi**

Qeyri-hökumət təşkilatının fəaliyyətinə qeyri-hökumət təşkilatın yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ya qeyri-hökumət təşkilatının ləğv edilməsi yolları ilə xitam verilir.

M a d d ə 1 9 . **Qeyri-hökumət təşkilatının yenidən təşkil edilməsi**

19.1. Qeyri-hökumət təşkilatı bu Qanunda nəzərdə tutulan qaydada yenidən təşkil edilə bilər. Qeyri-hökumət təşkilatının yenidən təşkili onun təsisçilərinin və ya təşkilatın nizamnamə ilə vəkil edilmiş orqanın qərarı ilə həyata keçirilə bilər.

19.2. Qeyri-hökumət təşkilatının yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formalarında həyata keçirilə bilər.

19.3. Qeyri-hökumət təşkilatının başqa təşkilatın ona qoşulma formasında yenidən təklif edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.[29]

19.4. Qeyri-hökumət təşkilatının ayrılma və bölünmə formalarında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin ayrılması haqqında və ya bölünən təşkilatın fəaliyyətinə xitam verilməsi haqqında və yeni qeyri-hökumət təşkilatlarının təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.5. Qeyri-hökumət təşkilatının çevrilmə formasında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən mövcud olan təşkilatın ləğvi və onun əsasında yeni təşkilatın təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.6. Qeyri-hökumət təşkilatının yenidən təşkilindən sonra hüquq varisliyi ilə bağlı olan bütün məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

19.7. Xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.[30]

M a d d ə 2 0 . **Qeyri-hökumət təşkilatının ləğvi**

Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Mülki Məcəlləsində və hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ləğv edilə bilər. Qeyri-hökumət təşkilatı ləğv edildikdə həmin qurum tərəfindən əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması barədə məlumatlar və bu məlumatları təsdiq edən sənədlər hüquqi şəxslərin dövlət reyestrinə daxil olunması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.[31]

M a d d ə 2 1 . **Ləğv edilən qeyri-hökumət təşkilatının əmlakı**

Qeyri-hökumət təşkilatının ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

## I V f ə s i l

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATIN FƏALİYYƏTİ

M a d d ə 2 2 . **Qeyri-hökumət təşkilatının fəaliyyət növləri**

22.1. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirə bilər.

22.2. Qeyri-hökumət təşkilatı əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölüşdürməyərək, yalnız təşkilatın yaradılması məqsədlərinə nail olmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirilə bilər. Belə fəaliyyət kimi qeyri-hökumət təşkilatının yaranma məqsədlərinə cavab verən, mənfəət gətirən mal və xidmət istehsalı və satışı, habelə qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi, əmanətçi kimi təsərrüfat cəmiyyətlərində, ortaqlıqlarda iştirakı qəbul edilir.

22.3. Qeyri-hökumət təşkilatı sahibkarlıq fəaliyyəti üzrə gəlir və xərclərin uçotunu aparır. Qeyri-hökumət təşkilatının məşğul ola bilən fəaliyyət növləri üçün hər bir məhdudiyyət yalnız qanunla müəyyən olunur.

22.4. Qeyri-hökumət təşkilatı peşəkar dini fəaliyyətlə məşğul ola bilməz.[32]

M a d d ə 2 3 . **Qeyri-hökumət təşkilatının əmlakı**

23.1. Qeyri-hökumət təşkilatının mülkiyyətində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.[33]
23.2. Qeyri-hökumət təşkilatı öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.
23.3. Fondun əmlakını onun təsisçiləri (təsisçisi) tərəfindən verilən əmlak təşkil edir. Fond təsis olunduqdan sonra ona əmlak vermiş şəxs təsisçi hüququ qazanmır. Təsisçilər onların yaratdığı fondun öhdəlikləri üçün, fondlar isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

M a d d ə 2 4 . **Qeyri-hökumət təşkilatının əmlakının formalaşdırılma mənbələri**

24.0. Qeyri-hökumət təşkilatının əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:
24.0.1. təsisçilərin və ya ictimai birliklərin üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
24.0.2. əmlak haqları və könüllü ianələri;[34]
24.0.3. malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
24.0.4. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
24.0.5. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
24.0.6. qrantlar;
24.0.7. qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

*Maddə 24-1.* ***İanələr və qrantlar***[35]

24-1.1. İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona *Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi (bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi) tərəfindən* bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.[36]
24-1.2. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz.
24-1.3. Qeyri-hökumət təşkilatına, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə ianə verən şəxs verdiyi və ya verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa, yaxud dolayı yola maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz.
24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə qəbul edilir. Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri iki yüz manatadək ianəni nağd şəkildə qəbul edə bilər.
*24-1.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.*[37]
24-1.6. Qrantların verilməsi, alınması və istifadəsi ilə bağlı iqtisadi və hüquqi münasibətlər "Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

*Maddə 24-2.* ***Qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi***[38]

*24-2.1. Qeyri-hökumət təşkilatı tərəfindən bu Qanunun 24.0.3-cü maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsi və işlərin görülməsi müqavilə əsasında həyata keçirilir. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.*
*24-2.2. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.*

*Maddə 24-3.* ***Qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və ianələr üzrə məlumatların təqdim edilməsinin elektron müraciət əsasında aparılması***[39]

*Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və qəbul etdikləri ianələr üzrə məlumatların təqdim edilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsi üçün müraciət edə bilərlər.*

V f ə s i l

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ İDARƏ OLUNMASI

M a d d ə 2 5 . **İctimai birliyin idarə olunmasının əsasları**

25.1. İctimai birliyin strukturu, tərkibi, idarəetmə orqanlarının səlahiyyəti, formalaşdırılma qaydası və onların səlahiyyət müddəti, qərar qəbul etmə və ictimai birliyin adından çıxış etmə qaydaları bu Qanun və digər qanunlara müvafiq olaraq ictimai birliyin nizamnaməsi ilə müəyyən edilir.

25.2. İctimai birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi yığıncaqdır.

25.3. Ümumi yığıncaq ictimai birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

25.4. Ümumi yığıncağın əsas funksiyası onun marağı naminə yarandığı məqsədlərə riayət etməkdir.

25.5. Ümumi yığıncağın səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

25.5.1. ictimai birliyin nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;

25.5.2. ictimai birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;

25.5.3. ictimai birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;

25.5.4. illik hesabatın təsdiq edilməsi;

25.5.5. başqa təşkilatlarda iştirak;

25.5.6. ictimai birliyin yenidən təşkili və ləğv edilməsi.

25.6. İctimai birliyin təsisçilərinə və üzvlərinə ümumi yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilməlidir. Ümumi yığıncaq yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə nizamnaməyə dəyişikliklər edə bilər. Ümumi yığıncağın qərarı yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir.

25.7. Ümumi yığıncaqda yazılı protokol aparılmalıdır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanmalıdır.

M a d d ə 2 6 . **İctimai birliyin icra orqanı**

26.1. İctimai birliyin icra orqanı kollegial və (və ya) təkbaşına ola bilər. O, ictimai birliyin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və ictimai birliyin ali idarəetmə orqanına hesabat verir.

26.2. İctimai birliyin icra orqanı ictimai birliyin filiallarını yaradır və nümayəndəliklərini açır.

26.3. İctimai birliyin icra orqanının səlahiyyətinə ictimai birliyin başqa idarəetmə orqanlarının bu Qanun, digər qanunlar və ictimai birliyin nizamnaməsi ilə müəyyən edilən müstəsna səlahiyyətini təşkil etməyən bütün məsələlərin həlli aiddir.

26.4. İctimai birliyin səlahiyyət müddəti bitmiş icra orqanları tərəfindən təşkilatın fəaliyyəti ilə əlaqədar hər hansı qərarların qəbul edilməsinə və ya sənədlərin imzalanmasına yol verilmir.[40]

M a d d ə 2 7 . **Fondun idarə olunması**

27.1. Fondun idarəsini fondun Prezidenti və ya idarə heyəti həyata keçirirlər.

27.2. Fondun himayəçilik Şurası fondun nəzarət orqanıdır və fondun fəaliyyətinə, fondun başqa orqanları tərəfindən qərarların qəbul edilməsinə və onların yerinə yetirilməsinin təmin edilməsinə, fond vəsaitinin istifadə edilməsinə, fəaliyyətinə nəzarəti və nizamnaməyə dəyişikliklər edilməsini, ləğvetmə və ya yenidən təşkiletmə haqqında qərarın qəbulunu həyata keçirir. Fondun Himayəçilik şurası öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.

27.3. Fondun Himayəçilik Şurasının formalaşma və fəaliyyət qaydası fondun təsisçiləri tərəfindən təsdiq edilmiş fondun nizamnaməsində müəyyən edilir.

VI f ə s i l

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI VƏ DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARI

M a d d ə 2 8 . **Dövlət hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları arasında əlaqə**

Qeyri-hökumət təşkilatının hüquqları bütün dövlət orqanları tərəfindən qorunur. Qeyri-hökumət təşkilatları qanunvericilik çərçivəsində öz fəaliyyətini müstəqil olaraq həyata keçirmək hüququna malikdir. Dövlət hakimiyyət orqanları qeyri-hökumət təşkilatlarına maliyyə və başqa formalarda yardım edə bilərlər. Dövlət orqanlarında ictimai birliklərin strukturları yaradılmır.[41]

M a d d ə 2 9 . **Qeyri-hökumət təşkilatının fəaliyyətinə nəzarət**

29.1. Qeyri-hökumət təşkilatı qanunvericiliyə müvafiq olaraq mühasibat uçotu aparır.

29.2. Qeyri-hökumət təşkilatının gəlirinin məbləği və strukturu, habelə onun əmlakı, xərcləri, işçilərin say tərkibi, əməyin ödənilməsi haqqında məlumatlar dövlət və ya kommersiya sirri ola bilməz.

29.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

29.4. Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Bu hesabatların forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[42]

29.5. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri öz fəaliyyətinin şəffaflığını təmin etməlidirlər. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri korrupsiya hüquqpozmalarının, habelə cinayət yolu ilə əldə edilmiş pul

vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.[43]

M a d d ə  3 0 . ( **Ç ı x a r ı l ı b** ) [44]

Maddə 30-1. **Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi**[45]

30-1.1. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

30-1.2. Müvafiq icra hakimiyyəti orqanı qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi işinə aidiyyəti dövlət orqanlarının və digər qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etmək səlahiyyətinə malikdir.

30-1.3. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi üçün maneələr yaradan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyırlar.

## V I I  f ə s i l

## YEKUN MÜDDƏALARI

M a d d ə  3 1 . **Qeyri-hökumət təşkilatının məsuliyyəti**[46]

31.1. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi bu Qanunun müddəalarından irəli gələn tələbləri pozduqda qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

31.2. Azərbaycan Respublikası qanunvericiliyinin, eləcə də nizamnamənin müddəalarından irəli gələn tələblərin pozulmasına görə qanunla məsuliyyət müəyyən olunmadığı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeyri-hökumət təşkilatına və ya xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə yazılı surətdə xəbərdarlıq edilir və pozuntuların 30 günədək müddətdə aradan qaldırılması haqqında göstəriş verilir.

31.3. *Aşağıda göstərilən* hallarda qeyri-hökumət təşkilatının, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər: ~~Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması əsasları aşağıdakılardır:~~[47]

31.3.1. qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törətdikdə;

31.3.2. qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda;

31.3.3. qeyri-hökumət təşkilatının icra orqanı tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması müəyyən edildikdə.

*31.3-1. Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti hərbi vəziyyət başa çatanadək dayandırıla bilər.*[48]

31.4. Qeyri-hökumət təşkilatına, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə bir il ərzində ikidən çox yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verildiyi halda qeyri-hökumət təşkilatı, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər.

31.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi qanunla müəyyən edilmiş məsuliyyət tədbirlərinin tətbiqi ilə əlaqədar inzibati qaydada və ya məhkəməyə şikayət etmək hüququna malikdir.

31.6. Bu Qanunun 31.3.1-ci və 31.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması barədə məhkəməyə müraciət müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu Qanunun 31.3.3-cü maddəsində nəzərdə tutulmuş halda isə qeyri-hökumət təşkilatının üzvləri tərəfindən edilir.

31.7. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılmasına səbəb olmuş pozuntular aradan qaldırıldıqda bu Qanunun 31.3.1-ci və 31.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının, 31.3.3-cü maddəsində müəyyən olunmuş halda isə təşkilatın üzvlərinin müraciəti əsasında qurumun fəaliyyəti məhkəmənin qərarı ilə vaxtından əvvəl bərpa oluna bilər.

31.8. Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını bu Qanunun 29.4-cü maddəsində müəyyən edilmiş müddətdə təqdim etmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin təşkilata yazılı surətdə xəbərdarlıq etməklə müvafiq hesabatın

30 gün müddətində təqdim edilməsinə dair göstəriş verir. Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.

M a d d ə 3 2 . **Əvvəllər qeydiyyata alınmış qeyri-hökumət təşkilatlarının yenidən qeydiyyata alınması**

Bu Qanun qüvvəyə minməmişdən əvvəl dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikası hüquqi şəxslərinin Dövlət reyestrinə daxil edilməlidirlər.

M a d d ə 3 3 . **Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 iyun 2000-ci il
894-IQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 22 iyun 2001-ci il tarixli 157-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 9, maddə 576**)
2. 5 oktyabr 2001-ci il tarixli 182-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 11, maddə 675**)
3. 3 dekabr 2002-ci il tarixli 398-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 1, maddə 16**)
4. 4 mart 2005-ci il tarixli 856-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 278**)
5. 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 684**)
6. 28 oktyabr 2005-ci il tarixli 1041 nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti, 1 noyabr 2005-ci il**)
7. 1 oktyabr 2007-ci il tarixli 424-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1049**)
8. 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1053**)
9. 13 iyun 2008-ci il tarixli **649-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 avqust 2008-ci il, 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 699)**
10. 30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyul 2009-cu il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 517)**
11. 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611)**
12. 12 fevral 2010-cu il tarixli **952-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 18 aprel 2010-cu il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-ci il, 4, maddə 265**)
13. 15 fevral 2013-cü il tarixli **561-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 12 mart 2013-cü il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 216)**
14. 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79)**
15. 17 oktyabr 2014-cü il tarixli **1082-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 16 noyabr 2014-cü il, 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1359)**
16. 1 may 2018-ci il tarixli **1101-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1160)**
17. 12 iyun 2018-ci il tarixli **1183-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1405)**
18. 8 may 2020-ci il tarixli **92-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 iyul 2020-ci il, 124 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 670)**
19. 30 iyun 2020-ci il tarixli **157-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1018)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79)** ilə 1.1-ci maddədə "**ictimai birliklərin və fondların**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin**" sözləri əlavə edilmişdir.

[2] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 1.4-cü maddədə "**orqanlarına**" sözündən sonra "**, habelə bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara**" sözləri əlavə edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 1.4-cü maddədə "**qeyri-hökumət**" sözü "**qeyri-kommersiya**" sözü ilə əvəz **edilmişdir.**

[3] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 2.2-ci maddədə "**könüllü**" sözü çıxarılmışdır.

[4] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 2.2-1-ci maddə əlavə edilmişdir.

[5] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 2.3-cü maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

12 iyun 2018-ci il tarixli **1183-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1405**) ilə 2.3-cü maddəyə yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[6] 28 oktyabr 2005-ci il tarixli **1041-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 noyabr 2005-ci il**) ilə 2.4-cü maddədə "(**xarici fiziki və hüquqi şəxslər, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən qrant alan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatları istisna olmaqla**)" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları (xarici fiziki və hüquqi şəxslər, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən qrant alan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatları istisna olmaqla) Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər.~~

13 iyun 2008-ci il tarixli **649-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 avqust 2008-ci il, 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 699**) ilə 2.4-cü maddənin ikinci cümləsində **"müşahidə edə"** sözlərindən sonra **"və exit-poll həyata keçirə"** sözləri əlavə edilmişdir və 2.4-cü maddəyə yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir, üçüncü cümlə müvafiq olaraq dördüncü cümlə hesab edilmişdir.

[7] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 3.1-ci maddəyə ikinci və üçüncü cümlələr əlavə edilmişdir.

[8] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə **3-1-ci maddə** əlavə edilmişdir.

[9] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 4-cü maddədə "**istənilən**" sözü "**bu Qanunla müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[10] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 684**) ilə 7.1-ci maddədə **"Qeydə alınmış"** sözləri **"Dövlət qeydiyyatına alınmış"** sözləri ilə əvəz edilmişdir.

30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193**) ilə 7.1-ci maddəyə ikinci-üçüncü cümlələr əlavə edilmişdir.

[11] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 7.1-1-ci maddə əlavə edilmişdir.

[12] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 7.4-cü maddənin birinci cümləsində "**Əsasnaməyə** əsasən" sözləri "**Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun**" sözləri ilə əvəz edilmişdir.

[13] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 7.4-1-ci maddə əlavə edilmişdir.

[14] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 7.5-ci maddəyə ikinci cümlə əlavə edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 7.5-ci maddənin ikinci cümləsi yeni redaksiyada verilmişdir, yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi şəxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar.~~

[15] 1 oktyabr 2007-ci il tarixli 424-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1049**) ilə 8.4-cü və 8.5-ci maddələr əlavə edilmişdir.

[16] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 9.1-1-ci maddə əlavə edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 9.1-1-ci maddədə "**təsisçisi**" sözündən sonra "**və qanuni təmsilçisi**" sözləri əlavə edilmişdir.

[17] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 10.4-cü maddə əlavə edilmişdir.

[18] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 10.5-ci maddə əlavə edilmişdir.

[19] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 11-ci maddənin birinci cümləsində "**öz münasibətlərini qeyri-hökumət təşkilatı ilə təşkilati cəhətdən rəsmiləşdirmədən**" sözləri çıxarılmışdır, ikinci cümləsində " **təsis sənədləri**" sözlərindən sonra "**və "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri əlavə edilmişdir.

[20] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 12.1-1-ci maddə əlavə edilmişdir.

[21] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 12.3-cü maddə əlavə edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 12.3-cü maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[22] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 13.1-ci maddədə "**məqsədləri və**" sözləri "**məqsədləri, daimi və ya konkret məqsədlə təsis edildiyi**," sözləri ilə əvəz edilmişdir.

8 may 2020-ci il tarixli **92-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 iyul 2020-ci il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 670**) ilə 13.1-ci maddəsinə "**şərtləri və qaydası,**" sözlərindən sonra **"o cümlədən gənclər təşkilatlarında üzvlərin yaşına dair tələblər,"** sözləri əlavə edilmişdir.

[23] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 13.3-cü maddə əlavə edilmişdir.

[24] 30 iyun 2020-ci il tarixli **157-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1018**) ilə yeni məzmunda 16.2-1-ci və 16.2-2-ci maddələr əlavə edilmişdir.

[25] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 16.3 və 16.4-cü maddələr əlavə edilmişdir.

[26] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 684**) ilə 17.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~17.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatına alınmasından yalnız həmin ad altında digər qeyri-hökumət təşkilatı mövcud olduqda və ya dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər Azərbaycan Respublikası Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunlarına zidd olduqda və ya sənədlərdə yanlış məlumatlar olduqda imtina edilə bilər.~~

[27] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 684**) ilə 17.2-ci maddədə **"imtina haqqında qərar,"** sözləri çıxarılmış və "**yazılı surətdə**" sözlərindən sonra **"məlumat"** sözü əlavə edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~17.2. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından imtina haqqında qərar, imtinanın əsasları və təsis sənədlərin hazırlanmasında qanunvericiliyin pozulmuş müddəaları və maddələrini göstərilməklə, yazılı surətdə qeyri-hökumət təşkilatının nümayəndəsinə təqdim olunur.~~

[28] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 684**) ilə 17.4-cü maddədə "**imtina haqqında qərardan**" sözləri **"imtinadan**" sözü ilə əvəz edilmişdir.

9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1053**) ilə 17.4-cü maddəsində "**imtinadan**" sözündən sonra "**inzibati qaydada və (və ya)** " sözləri əlavə edilmişdir.

[29] 5 oktyabr 2001-ci il tarixli 182-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 11, maddə 675**) ilə Qanunun 19.3-cü maddəsində "**birləşmə və**" sözləri çıxarılmış, "**formalarında**" sözü "**formasında**" sözü ilə əvəz edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~19.3. Qeyri-hökumət təşkilatının başqa təşkilatın ona birləşmə və qoşulma formalarında yenidən təklif edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.~~

[30] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 19.7-ci maddə əlavə edilmişdir.

[31] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 20-ci maddədə "**təşkilatı**" sözündən sonra "**Azərbaycan Respublikasının Mülki Məcəlləsində və**" sözləri əlavə edilmişdir, maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[32] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 22.4-cü maddə əlavə edilmişdir.

[33] 5 oktyabr 2001-ci il tarixli 182-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 11, maddə 675**) ilə Qanunun 23.1-ci maddəsində "**və ya operativ idarəsində** " sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~23.1. Qeyri-hökumət təşkilatının mülkiyyətində və ya operativ idarəsində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.~~

[34] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 24.0.2-ci maddədən "**könüllü**" sözü çıxarılmışdır və həmin maddədə "**ianələri**" sözündən əvvəl "**könüllü**" sözü əlavə edilmişdir.

[35] 15 fevral 2013-cü il tarixli **561-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 12 mart 2013-cü il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 216**) ilə 24-1-ci maddə əlavə edilmişdir.

[36] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 24-1.1-ci maddədə "**qeyri-hökumət təşkilatının**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin** " sözləri, 24-1.2-ci maddədə "**Qeyri-hökumət təşkilatı**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri** " sözləri, 24-1.3-cü maddədə "**Qeyri-hökumət təşkilatına**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə** " sözləri, 24-1.4-cü maddənin birinci cümləsində "**qeyri-hökumət təşkilatının**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin**" sözləri, ikinci cümləsində "**qeyri-hökumət təşkilatı**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri**" sözləri, 24-1.5-ci maddədə "**Qeyri-hökumət təşkilatının**" sözlərindən sonra "**, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin**" sözləri əlavə edilmişdir.

17 oktyabr 2014-cü il tarixli **1082-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 16 noyabr 2014-cü il, 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1359**) ilə 24-1.1-ci maddədə "**ona**" sözündən sonra "**Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi (bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi) tərəfindən**" sözləri əlavə edilmişdir.

[37] 17 oktyabr 2014-cü il tarixli **1082-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 16 noyabr 2014-cü il, 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1359**) ilə 24-1.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~24-1.5. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin" qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş məlumatlar müvafiq icra hakimiyyəti orqanına təqdim olunan maliyyə hesabatına daxil edilir.~~

[38] 17 oktyabr 2014-cü il tarixli **1082-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 16 noyabr 2014-cü il, 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1359**) ilə 24-2-ci maddə əlavə edilmişdir.

[39] 30 iyun 2020-ci il tarixli **157-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1018**) ilə yeni məzmunda 24-3-cü maddə əlavə edilmişdir.

[40] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 26.4-cü maddə əlavə edilmişdir.

[41] 22 iyun 2001-ci il tarixli 157-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 9, maddə 576**) ilə 28-ci maddəsinə aşağıdakı məzmunda cümlə əlavə edilmişdir:

"Dövlət orqanlarında ictimai birliklərin strukturları yaradılmır."

[42] 30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 24 iyul 2009-cu il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 517**) ilə yeni məzmunda 29.4-cü maddə əlavə edilmişdir.

30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə yeni məzmunda 29.4-cü maddə əlavə edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~29.4. Qeyri-hökumət təşkilatı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.~~

[43] 12 fevral 2010-cu il tarixli **952-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 18 aprel 2010-cu il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-ci il, 4, maddə 265**) ilə Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli, 856-IIIQD nömrəli Qanunu ilə əlavə edilmiş 29.4-cü maddə müvafiq olaraq 29.5-ci maddə hesab edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 29.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~29.5. Qeyri-hökumət təşkilatı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.~~

[44] 3 dekabr 2002-ci il tarixli 398-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 1, maddə 16**) ilə 30-cu maddə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 0 . **Qeyri-hökumət təşkilatların istifadə etdiyi vergi güzəştləri**~~

~~Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatları Azərbaycan Respublikası Vergi Məcəlləsində nəzərdə tutulmuş vergi güzəştlərindən istifadə edirlər.~~

[45] 17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə yeni məzmunda 30-1-ci maddə əlavə edilmişdir.

[46] 30 iyun 2009-cu il tarixli 842-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 1 sentyabr 2009-cu il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 611**) ilə 31.2-1-ci və 31.6-cı maddələr əlavə edilmişdir.

4 mart 2005-ci il tarixli 856-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 278**) ilə Qanuna 31.5-ci maddə əlavə edilmişdir.

17 dekabr 2013-cü il tarixli **849-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 04 fevral 2014-cü il, 023 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 79**) ilə 31-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

-

Əvvəlki redaksiyada deyilirdi:

-

~~31.1. Qeyri-hökumət təşkilatı bu Qanunun müddəalarından irəli gələn tələbləri pozduqda Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə məsuliyyət daşıyır.~~

~~31.2. Bu Qanunun məqsədlərinə zidd olan hərəkətlərə yol verildiyi halda qeyri-hökumət təşkilatına müvafiq icra hakimiyyəti orqanı tərəfindən yazılı surətdə xəbərdarlıq edilə və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verilə bilər.~~

~~31.2-1. Hüquqi şəxslərin dövlət reyestri üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya yanlış məlumatların verilməsinə görə qeyri-hökumət təşkilatına xəbərdarlıq edilir.~~

~~31.3. Qeyri-hökumət təşkilatı həmin xəbərdarlıqdan və ya göstərişdən məhkəmə qaydasında şikayət vermək hüququna malikdir.~~

~~31.4. Qeyri-hökumət təşkilatına bir il ərzində ikidən çox yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verildiyi halda qeyri-hökumət təşkilatı məhkəmənin qərarı ilə ləğv edilə bilər.~~

~~31.5. Fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törədən qeyri-hökumət təşkilatının fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada dayandırıla bilər.~~

~~31.6. Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını müəyyən edilmiş müddətdə təqdim etmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin təşkilata yazılı surətdə xəbərdarlıq etməklə müvafiq hesabatın 30 gün müddətində təqdim edilməsinə dair göstəriş verir. Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.~~

[47] 1 may 2018-ci il tarixli **1101-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1160**) ilə 31.3-cü maddənin birinci cümlədə "**Bu maddədə müəyyən olunmuş**" sözləri "**Aşağıda göstərilən**" sözləri ilə, cümlənin sonunda isə nöqtə işarəsi iki nöqtə işarəsi ilə əvəz edilmişdir və ikinci cümlə ləğv edilmişdir.

[48] 1 may 2018-ci il tarixli **1101-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1160**) ilə yeni məzmunda 31.3-1-ci maddə əlavə edilmişdir.